ABACUS

ABACUS AUDIT AND CONSULTING

# "AZƏRBAYCAN RESPUBLİKASININ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ" PUBLIK HÜQUQİ ŞƏXSİ

## Maliyyə Hesabatlarının Beynəlxalq Standartları əsasında Hazırlanmış Maliyyə Hesabatları və Müstəqil Auditorların Rəyi

## 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə

# MÜNDƏRİCAT

**Maliyyə hesabatlarının hazırlanması və təsdiqlənməsi ilə bağlı rəhbərliyin məsuliyyətinə dair bəyanat**

**Müstəqil auditorun hesabatı**

**MALİYYƏ HESABATLARI**


Maliyyə vəziyyəti haqqında hesabat....................1
Mənfəət və ya zərər və sair məcmu gəlir haqqında....................2
Kapitalda dəyişikliklər haqqında hesabat....................3
Pul vəsaitlərinin hərəkəti haqqında hesabat....................4

1. Agentlik və onun fəaliyyəti....................5
2. Əsas mühasibat prinsipləri....................6
3. Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli uçot təxminləri və fərziyyələr.....15
4. Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi........16
5. Dərc olunmuş, lakin hazırda qəbul olunmamış standartlar və şərhlər..............17
6. Əlaqəli tərəflərlə bağlı əməliyyatlar və qalıqlar....................19
7. Pul Vəsaitləri və onları ekvivalentləri....................20
8. Torpaq, Tikili və Avadanlıqlar....................20
9. Qeyri-Maddi Aktivlər....................21
10. Digər Aktivlər....................21
11. İstifadə hüququ olan aktivlər....................21
12. Qısamüddətli kreditor borclar....................22
13. Nizamnamə kapitalı....................22
14. Dövlət büdcəsindən daxilolmalar....................22
15. İşçi heyəti ilə bağlı xərclər....................23
16. Ayrılmış Qrantlar....................23
17. Digər xərclər....................24
18. Təəhhüdlər, şərti öhdəliklər və əməliyyat riskləri....................24
19. Maliyyə risklərinin idarə edilməsi....................26
20. Ədalətli dəyər haqqında açıqlamalar....................26
21. Hesabat tarixindən sonrakı hadisələr....................27

# 31 DEKABR 2025-Ci İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQ EDİLMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNİN BƏYANI

Aşağıdakı bəyanat, müstəqil auditorun hesabatında göstərilmiş auditorun rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və "Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" Publik Hüquqi Şəxsin (bundan sonra "Agentlik" adlandırılacaq) maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik Agentliyin 31 dekabr 2025-ci il tarixinə maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

• Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
• Məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;
• Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
• Əgər yaxın gələcəkdə, Agentliyin normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

• Agentliyin daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
•Agentliyin maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
•Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
•Mümkün imkanlardan istifadə edərək Agentliyin aktivlərinin qorunmasının təmin edilməsi və;
•Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq hallarının müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

**Rəhbərlik tərəfindən:**

| | |
|---|---|
| **Aygün Əliyeva**<br>**İdarə Heyətinin Sədri** | **Əli Quluzadə**<br>**Baş mühasib** |

AZƏRBAYCAN RESPUBLİKASININ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ PUBLİK HÜQUQİ ŞƏXS

ABACUS
ABACUS AUDIT AND CONSULTING

# MÜSTƏQİL AUDİTORUN HESABATI № ccCTCfoJfe

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Rəhbərliyinə və Müşahidə Şurasına

## RƏY

Biz, "Abacus Audit and Consulting" MMC olaraq (Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 03 iyun 2022-ci il tarixli AT/135 saylı icazə verilib) Agentliyin 31 dekabr 2025-ci il tarixlərinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər, digər məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.
Agentlikdə tətbiq edilən mühasibat uçotu qaydalarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) və Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (MUBS) uyğunluğunun dəyərləndirilməsini apararaq cari tətbiq olunan uçot siyasətinə uyğun olan yeni MHBS və MUBS üzrə tövsiyyələrin verilməsini təmin etdik.

Hesab edirik ki, Agentliyin əlavə edilmiş maliyyə hesabatları əksər əhəmiyyətli aspektlərdə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun hazırlanmışdır.

### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın "Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti" bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının "Peşəkar mühasiblərin etika məcəlləsi"nə ("MBESŞ Məcəlləsi") uyğun olaraq biz Agentlik-dən müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, habelə saxtakarlıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Rəhbərlik Agentliyin fəaliyyətinin fasiləsiz davam etdirilməsinin qiymətləndirilməsi və fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına, habelə fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır. Rəhbərlik bu prinsipə riayət edərkən "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanununun müddəalarını nəzərə alır. Həmin Qanunun 5-ci və 9-cu maddələrində müvafiq olaraq qeyd olunur ki, publik hüquqi şəxs müflis elan oluna bilməz və publik hüquqi şəxsin ləğvi və yenidən təşkili ilə bağlı məsələlər onun nizamnaməsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.
Rəhbərlik Agentliyin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

### Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS

audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

• Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.

• Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Agentliyin daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.

• Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.

• Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Agentliyin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər Agentliyin daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.

• Məlumatların açıqlanması da daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz Agentliyin idarə olunmasına cavabdeh şəxslərin nəzərinə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə müəyyən etdiyimiz hər hansı əhəmiyyətli çatışmazlıqları çatdırırıq.

Biz həmçinin Agentliyin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik. Agentliyin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat verməninin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**"Abacus Audit and Consulting"**
**MMC-nin direktor (auditoru)** **Rüfət Zeynalov**

ABACUS AUDIT AND CONSUTING
Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti
Limited Liability Company Azerbaijan Republic

**30 aprel 2026-cı il**

**Bakı, Azərbaycan**

## “AZƏRBAYCAN RESPUBLİKASININ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ” PUBLİK HÜQUQİ ŞƏXS

**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNƏ**
*(Azərbaycan Manatı ilə)*

### Maliyyə vəziyyəti haqqında hesabat

| | Qeydlər | 2025 | 2024 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 9 | 203,109.00 | 51,433.00 |
| Torpaq, tikili və avadanlıqlar | 8 | 240,255.00 | 109,822.00 |
| İstifadə hüququ olan aktivlər | 11 | - | 51,012.00 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **443,364.00** | **212,267.00** |
| **Qısamüddətli aktivlər** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 641,776.00 | 2,342,759.00 |
| Digər aktivlər | 10 | 10,357.00 | 10,893.00 |
| **Cəmi qısamüddətli aktivlər** | | **652,133.00** | **2,353,652.00** |
| **Cəmi aktivlər** | | **1,095,497.00** | **2,565,919.00** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Digər kapital ehtiyatları | 13 | 134,945.00 | 134,945.00 |
| Bölüşdürülməmiş mənfəət (zərər) | | (924,406.00) | - |
| Ümumi fond | | 1,645,234.00 | 1,635,748.00 |
| **Cəmi kapital** | | **855,774.00** | **1,770,693.00** |
| **Öhdəliklər** | | | |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Qısamüddətli kreditor borcları | 12 | 239,723.00 | 732,928.00 |
| İcarə öhdəliyi | | - | 62,298.00 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **239,723.00** | **795,226.00** |
| **Cəmi öhdəliklər** | | **239,723.00** | **795,226.00** |
| **Cəmi kapital və öhdəliklər** | | **1,095,497.00** | **2,565,919.00** |

**Rəhbərlik tərəfindən:**

**Aygün Əliyeva**
**İdarə Heyətinin Sədri**

**Əli Quluzadə**
**Baş mühasib**

AZƏRBAYCAN RESPUBLİKASININ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ PUBLİK HÜQUQİ ŞƏXS

**"AZƏRBAYCAN RESPUBLİKASININ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS**

**MƏNFƏƏT VƏ YA ZƏRƏR HESABAT**
**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

## Mənfəət və Zərər haqqında hesabat

| | Qeydlər | 2025 | 2024 |
|---|---|---|---|
| Əməliyyat fəaliyyətindən gəlir | | 370,001.00 | - |
| Məqsədli maliyyələşmə üzrə gəlir | | 6,784,334.00 | |
| **Cəmi əməliyyat gəlirləri** | | **7,154,335.00** | **-** |
| Ayrılmış qrantlar | 16 | (6,095,596.00) | (6,397,412.00) |
| İşçi heyəti ilə bağlı xərclər | 15 | (716,127.00) | (789,168.00) |
| Amortizasiya xərcləri | 8-9-11 | (61,006.00) | (188,852.00) |
| Digər xərclər | 17 | (1,206,013.00) | (1,193,854.00) |
| **Cəmi əməliyyat xərcləri** | | **(8,078,741.00)** | **(8,569,286.00)** |
| **Əməliyyat mənfəəti** | | **(924,406.00)** | **(8,569,286.00)** |
| **Maliyyə xərcləri** | | - | (43,815.00) |
| **Mənfəət vergisindən əvvəl mənfəət** | | **(924,406.00)** | **(8,613,101.00)** |
| Mənfəət vergisi | | - | - |
| **İl üzrə mənfəət** | | **(924,406.00)** | **(8,613,101.00)** |

**Rəhbərlik tərəfindən:**

**Aygün Əliyeva**
**İdarə Heyətinin Sədri**

**Əli Quluzadə**
**Baş mühasib**

## "AZƏRBAYCAN RESPUBLİKASININ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT
### 31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ
*(Azərbaycan Manatı ilə)*

**Kapitalda dəyişiklik haqqında hesabat**

| | Digər Kapital Ehtiyatları | Ümumi Fond | Bölüşdürülməmiş mənfəət/Ödənilməmiş zərər | Cəmi Kapital |
|---|---|---|---|---|
| **01 yanvar 2024-cü il tarixinə qalıq** | **134,945.00** | **562,351.00** | | **697,296.00** |
| Dövlət büdcəsindən daxil olmalar | | 9,686,498.00 | | 9,686,498.00 |
| Dövr üzrə cəmi xalis xərclər | | 8,613,101.00 | | 8,613,101.00 |
| **31 dekabr 2024-cü il tarixinə qalıq** | **134,945.00** | **1,635,748.00** | - | **1,770,693.00** |
| **01 yanvar 2025 ci il tarixə** | **134,945.00** | **1,635,748.00** | - | **1,770,693.00** |
| Səhvlərə düzəliş | | **9,486.00** | | **9,486.00** |
| Dövlət büdcəsindən daxil olmalar | | - | | |
| Dövr üzrə cəmi xalis xərclər | | - | | |
| İl üzrə mənfəət (zərər) | | | (924,406.00) | **(924,406.00)** |
| **31 dekabr 2025-ci il tarixinə qalıq** | **134,945.00** | **1,645,234.00** | **(924,406.00)** | **855,774.00** |

**Rəhbərlik tərəfindən:**

**Aygün Əliyeva**
**İdarə Heyətinin Sədri**

**Əli Quluzadə**
**Baş mühasib**

## "AZƏRBAYCAN RESPUBLİKASININ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ" PUBLİK HÜQUQİ ŞƏXS

**MALİYYƏ HESABATLARI ÜZRƏ QEYDLƏR**
**31 DEKABR 2025-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ**
*(Azərbaycan Manatı ilə)*

### Pul vəsaitlərinin hərəkəti haqqında hesabat

| | | 2025 | 2024 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti** | | | |
| Sifarişçilərdən daxil olan pul vəsaitləri | | 7,154,335.00 | - |
| **Cəmi** | | **7,154,335.00** | **-** |
| Verilmiş qrantlar | 16 | (6,095,596.00) | (6,397,412.00) |
| Malsatanlara ödənilmiş pul vəsaitləri | | (1,809,285.00) | (464,305.00) |
| İşçilərə və onların adından ödənilmiş pul vəsaitləri | | (616,773.00) | (917,604.00) |
| **Cəmi** | | **(8,521,654.00)** | **(7,779,321.00)** |
| **Əməliyyat fəaliyyətindən əldə edilən xalis pul vəsaitləri** | | **(1,367,319.00)** | **(7,779,321.00)** |
| **İnvestisiya fəaliyyəti** | | | |
| Torpaq tikili və avadanlıqların alınması və təmiri | 8 | (174,777.00) | (897.00) |
| Qeyri maddi aktivlərin alınması və təmiri | 9 | (158,887.00) | |
| **İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **(333,664.00)** | **(897.00)** |
| **Maliyyələşdirmə fəaliyyəti** | | | |
| Dövlət büdcəsindən daxilolmalar | | | 9,686,498.00 |
| İcarə öhdəliyi üzrə əsas ödəniş | | - | (123,585.00) |
| İcarə öhdəliyi üzrə faiz ödənişi | | - | (43,815.00) |
| **Maliyyələşdirmə fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **-** | **9,519,098.00** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma) / artım** | | **(1,700,983.00)** | **1,738,880.00** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin əvvəli** | | **2,342,759.00** | **603,879.00** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, ilin sonu** | 7 | **641,776.00** | **2,342,759.00** |

**Rəhbərlik tərəfindən:**

**Aygün Əliyeva**
**İdarə Heyətinin Sədri**

**Əli Quluzadə**
**Baş mühasib**

AZƏRBAYCAN RESPUBLİKASININ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARINA DÖVLƏT DƏSTƏYİ AGENTLİYİ PUBLİK HÜQUQİ ŞƏXS

## 1. AGENTLİK VƏ ONUN FƏALİYYƏTİ

*Ümumi məlumat*

"Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi" publik hüquqi şəxsi (bundan sonra "Agentlik") Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2021-ci il tarixli 1317 nömrəli fərmanına əsasən yaradılıb və fəaliyyət göstərir.

Agentlik qeyri-hökumət təşkilatlarının inkişafı, dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və təşviqi, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair qeyri-hökumət təşkilatlarının irəli sürdükləri təşəbbüslərin, proqram və layihələrin (bundan sonra "Layihələr") mövzularının qiymətləndirilməsi və onlara dair rəy verilməsi, habelə qeyri-hökumət təşkilatlarının beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi sahələrində (bundan sonra "Müvafiq sahə") fəaliyyət göstərən publik hüquqi şəxsdir.

Agentlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin digər fərmanlarını, həmçinin sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Agentliyin nizamnaməsini və digər normativ hüquqi aktları rəhbər tutur.

Agentlik öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları ilə, beynəlxalq və qeyri-hökumət təşkilatları ilə, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

Agentliyin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Müvafiq sahənin inkişafını təmin etmək;
- Müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;
- Dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərini inkişaf etdirmək və təşviq etmək;
- Dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair qeyri-hökumət təşkilatlarının irəli sürdükləri Layihələrin mövzularını qiymətləndirmək və onlara dair rəy vermək;
- Qeyri-hökumət təşkilatlarının ictimai nəzarət sahəsində fəaliyyətini təşviq etmək;
- Qeyri-hökumət təşkilatlarının beynəlxalq əməkdaşlıq əlaqələrini inkişaf etdirmək;
- Dövlət büdcəsinin vəsaiti hesabına ayrılan qrantlardan qeyri-hökumət təşkilatları tərəfindən təyinatı üzrə istifadə olunmasına nəzarətin həyata keçirilməsində iştirak etmək;
- Qeyri-hökumət təşkilatlarına məlumatlandırma, konsultativ, metodiki, maliyyə yardımı göstərmək;
- Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək.

Agentliyin fəaliyyətinə nəzarəti Azərbaycan Respublikasının Prezidenti, həmçinin nizamnamə ilə müəyyən edilmiş qaydada Agentliyin idarəetmə orqanları həyata keçirirlər.

Agentliyin idarəetmə orqanları Müşahidə Şurası və İcraçı direktordur.

Agentliyin Müşahidə Şurası (bundan sonra "Şura") Agentliyə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir.

Şura Azərbaycan Respublikası Prezidentinin vəzifəyə təyin və vəzifədən azad etdiyi 11 üzvdən ibarətdir. Şuranın 8 üzvü qeyri-hökumət təşkilatlarının nümayəndələrindən, digər 3 üzvü isə dövlət orqanlarının nümayəndələrindən 4 il müddətinə təyin edilir. Şuranın sədri Şuranın iclasında Şura üzvləri sırasından 2 il müddətinə seçilir. 2025-ci il üzrə əvvəlki üzvlərin üzvlük müddəti birinci rübdə bitmiş, Azərbaycan Respublikası Prezidentinin 30.12.2025-ci il tarixli Sərəncamına əsasən yeni üzvlər 2026-cı ildən fəaliyyətə başlamışdır.

31 dekabr 2025-ci il tarixinə Şuranın üzvləri aşağıdakılardan ibarətdir:

| | |
|---|---|
| Müşahidə Şurasının sədri | Fuad Məmmədov |
| Müşahidə Şurasının üzvü | Elşad Məmmədli |
| Müşahidə Şurasının üzvü | Zaman Hüseynov |
| Müşahidə Şurasının üzvü | Elnarə Ənsari |
| Müşahidə Şurasının üzvü | Rizvan Nəbiyev |
| Müşahidə Şurasının üzvü | Xatirə Vəliyeva |
| Müşahidə Şurasının üzvü | Fizzə Mirzəyeva |

Agentliyin təsisçisi Azərbaycan Respublikasıdır.

Agentlik Azərbaycan Respublikası, Bakı şəhəri, Nizami Rayonu, Heydər Əliyev prospekti, ev 152 ünvanında qeydiyyatdan keçmişdir. Agentliyin faktiki ünvanı Bakı şəhəri, Yasamal rayonu, Hüseyn Cavid prospekti, 520-ci məhəllə, ev 20-dir.

31 dekabr 2025-ci il tarixinə Agentliyin işçi heyəti 18 nəfərdən ibarət olmuşdur (31 dekabr 2024-cü il: 31 nəfər).

## 2. ƏSAS MÜHASİBAT PRİNSİPLƏRİ

### Giriş

### Uyğunluq haqqında bəyanat

Agentliyin 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə hazırkı maliyyə hesabatları Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (BMUSŞ) tərəfindən dərc edilmiş Maliyyə Hesabatlarının Beynəlxalq Standartları ("MHBS") və Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına Şərhlər Komitəsi ("MHBSŞK") tərəfindən dərc edilmiş şərhlər əsasında hazırlanmışdır.

### Qiymətləndirmə əsasları

Maliyyə hesabatları tarixi dəyər əsasında hazırlanmışdır.

### Fasiləsizlik prinsipi

Maliyyə hesabatları Agentliyin fasiləsizlik prinsipi əsasında yaxın gələcəkdə işini normal şərtlər altında davam etdirəcəyini nəzərdə tutur.

Rəhbərlik hesab edir ki, Agentlik yaxın gələcəkdə fəaliyyətini davam etdirəcək və Agentliyin ləğvinə nə istək, nə də ehtiyac olacaq, eləcə də fəaliyyəti dayandırmaq və ya Azərbaycan Respublikasının qanunları və ya normativ aktları əsasında kreditorlardan qorunmaq üçün müdafiə axtarmaq üzrə nə niyyət, nə də zərurət mövcuddur.

Buna görə, aktivlər və öhdəliklər adi fəaliyyət gedişində Agentliyin aktivləri reallaşdırmaq və öhdəlikləri yerinə yetirmək qabiliyyətinə malik olması fərziyyəsi ilə hesabatlarda əks etdirilmişdir.

Bəzi maliyyə hesabatları standartları rəhbərlik tərəfindən Agentliyin fasiləsizlik prinsipinə dair dəyərləndirmənin aparılması üzrə konkret tələblərin, nəzərə alınmalı olan müəyyən məsələlərin və fasiləsizlik prinsipi ilə əlaqədar bir sıra açıqlamaların hesabatlara daxil edilməsini əhatə edir.

Rəhbərliyin fasiləsizlik prinsipi üzrə ehtimalının qiymətləndirilməsi müəyyən bir müddətdə, hadisələrin və ya şərtlərin gələcək inkişafı ilə əlaqədar subyektiv qərarların qəbul edilməsini nəzərdə tutur.

**Təqdimatın digər əsasları**

MHBS əsasında hazırlanmış maliyyə hesabatları, başqa cür qeyd edilmədiyi hallarda, Azərbaycan Manatı ("AZN") ilə ifadə edilir. MHBS əsasında hazırlanmış maliyyə hesabatları tarixi dəyər əsasında tərtib edilmişdir.

**Əsas qiymətləndirmə üsulları**

**Cari və uzunmüddətli təsnifatlar müqayisədə**

Agentlik aktiv və öhdəlikləri cari/uzunmüddətli təsnifləşdirmələr əsasında MHBS əsasında hazırlanmış maliyyə vəziyyəti haqqında hesabatda təqdim edir. Aktiv aşağıdakı hallarda cari aktiv sayılır:

- Normal əməliyyat dövründə satılması və ya istehlak edilməsi nəzərdə tutulduqda və ya satılması ehtimal edildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində satılması ehtimal edildikdə; və ya
- Hesabat tarixindən ən azı on iki ay sonra öhdəliyin ödənilməsi üçün mübadilə edilməsi və ya istifadə edilməsi üçün məhdudlaşdırılması halları istisna olmaqla, pul vəsaitləri və onların ekvivalanetləri formasında olduqda.

Digər bütün aktivlər uzunmüddətli aktivlər sayılır.

Öhdəlik aşağıdakı hallarda cari öhdəlik sayılır:

- Normal əməliyyat dövrü ərzində ödənilməsi gözlənildikdə;
- İlkin olaraq ticarət məqsədilə saxlanıldıqda;
- Hesabat tarixindən sonrakı 12 ay ərzində ödənilməsi ehtimal edildikdə; və ya
- Hesabat dövründən sonra ən azı on iki ay müddətində öhdəliyin ödənilməsini təxirə salmaq üzrə qeyri-şərtsiz hüquqa malik olmadıqda.

Agentlik digər bütün öhdəlikləri uzunmüddətli olaraq təsnifləşdirir.

**sTorpaq, tikili və avadanlıqlar**

Əsas vəsaitlər hər hansı yığılmış amortizasiya və ehtiyac yaranarsa dəyərsizləşmə üzrə ehtiyat çıxılmaqla, ilkin dəyərdə uçota alınır. Əsas vəsaitlər ilə bağlı sonrakı xərclər müvafiq olaraq aktivin qalıq dəyərində və ya ayrıca aktiv kimi yalnız o halda tanınır ki, həmin aktivlə bağlı gələcək iqtisadi səmərənin Agentliyə daxil olması ehtimal edilsin və onun dəyəri etibarlı şəkildə ölçülə bilsin. Kiçik həcmli təmir və gündəlik xidmət xərcləri çəkildiyi dövrdə xərcə silinir. Əsas vəsaitlərin əsas

hissələrinin və ya komponentlərinin əvəz edilməsi xərcləri kapitallaşdırılır və əvəz edilmiş hissələr balansdan silinir.

Aktivin silinməsindən yaranan gəlir və ya zərər silinmədən daxil olan vəsait ilə həmin aktivin qalıq dəyəri arasındakı fərq kimi hesablanır və mənfəət və ya zərərdə aktivin silindiyi ildə tanınır.

Rəhbərlik hər bir hesabat dövrünün sonunda əsas vəsaitlər üzrə dəyərsizləşmə əlamətlərinin mövcud olub-olmadığını qiymətləndirir. Əgər bu cür əlamətlər mövcud olarsa, rəhbərlik bərpa edilə bilən dəyəri təxmin edir. Aktivin bərpa edilə bilən dəyəri onun satış üzrə məsrəfləri çıxılmaqla ədalətli dəyəri və istifadə dəyərindən daha yüksək olan dəyəridir. Balans dəyəri bərpa edilə bilən dəyərə qədər azaldılır və dəyərsizləşmə zərəri il üzrə mənfəət və ya zərərdə tanınır. Aktivin istifadə dəyərini və ya satış üzrə məsrəflər çıxılmaqla ədalətli dəyərini müəyyən etmək üçün istifadə edilmiş təxminlərdə dəyişiklik baş verdiyi təqdirdə, əvvəlki illərdə tanınmış dəyərsizləşmə zərəri bərpa edilir.

Amortizasiya müvafiq aktivlərin aşağıda göstərilən amortizasiya dərəcələrinə uyğun olaraq onların təxmini faydalı istifadə müddəti ərzində düzxətli amortizasiya metoduna əsasən hesablanır:

| | |
|---|---|
| Kompüterlər və avadanlıqlar | 20% |
| Nəqliyyat vasitələri | 20% |
| Mebel və qurğular | 20% |
| İstifadə hüququ olan aktivlər | icarə şərtlərindən asılı olaraq |

Aktiv faydalı istifadə müddətinin sonunda nəzərdə tutulan vəziyyətə uyğun olduqda, onun satışı ilə bağlı ehtimal olunan xərclər çıxıldıqdan sonra Agentlik tərəfindən əldə oluna biləcək qiymətləndirilmiş məbləğ aktivin qalıq dəyəridir. Aktivlərin qalıq dəyəri və faydalı istifadə müddəti hər bir hesabat dövrünün sonunda nəzərdən keçirilir və lazım olduqda dəyişdirilir.

**Qeyri-maddi aktivlər**

Agentliyin qeyri-maddi aktivləri müəyyən edilmiş faydalı istifadə müddətinə malik olub, əsasən kapitallaşdırılmış proqram təminatından ibarətdir. Qeyri-maddi aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla uçota alınır. Proqram təminatı üzrə əldə edilmiş lisenziyalar proqram təminatının alınması və tətbiq edilməsi üçün çəkilmiş xərclər əsasında kapitallaşdırılır. Amortizasiya qeyri-maddi aktivlərin təxmin edilən faydalı istifadə müddəti (10 il) və ya lisenziyalar üzrə həmin lisenziyanın etibarlı olduğu müddət ərzində düz xətt metodu ilə xalis xərclər haqqında hesabatda tanınır.

**Pul vəsaitləri və onların ekvivalentləri**

Pul vəsaitləri və onların ekvivalentləri pul vəsaitlərinin əvvəlcədən məlum olan məbləğinə asan çevrilə bilən və dəyərin cüzi dəyişməsi kimi riskə məruz qalan qısa müddətli qoyuluşlardır.

Pul vəsaitləri və onların ekvivalentlərinə banklarda olan nağd pul və müddəti üç ay və ya daha az olan qısa müddətli depozitlər daxildir. Pul vəsaitləri və onların ekvivalentləri amortizasiya olunmuş dəyərdə uçota alınır, çünki:

(i) onlar müqavilə üzrə pul vəsaitlərinin hərəkətinin toplanması üçün saxlanılır və həmin pul vəsaitlərinin hərəkəti yalnız əsas məbləğ və faiz ödənişləri (YƏMFÖ) təqdim edir; və
(ii) onlar mənfəət və zərər vasitəsilə ədalətli dəyər (MZVƏD) olaraq təyin edilmir.

**Maliyyə alətləri - əsas qiymətləndirmə üsulları**

Ədalətli dəyər qiymətləndirmə tarixində bazar iştirakçıları arasında könüllü şəkildə əməliyyat həyata keçirilərkən aktivi satmaq üçün alınacaq və öhdəliyi ötürərkən ödəniləcək dəyərdir. Ədalətli dəyər ən

yaxşı olaraq fəal bazarda alınıb-satıla bilən qiymət ilə təsdiqlənir. Fəal bazar qiymətlər haqqında davamlı olaraq məlumat əldə etmək üçün aktiv və öhdəliklər üzrə əməliyyatların kifayət qədər tez müddətdə və həcmdə həyata keçirildiyi bazardır.

Fəal bazarda alınıb-satılan maliyyə alətlərinin ədalətli dəyəri ayrı-ayrı aktiv və ya öhdəliklərin bazar qiymətinin müəssisənin istifadəsində olan aktiv və ya öhdəliklərin miqdarına hasili nəticəsində alınan məbləğ kimi ölçülür. Bu hal hətta bazarın normal gündəlik ticarət dövriyyəsi müəssisənin istifadəsində olan aktiv və öhdəliklərin qarşılanması üçün kifayət qədər olmadıqda və bir əməliyyat üzrə mövqelərin satılması üçün sifarişlərin yerləşdirilməsi bazar qiymətinə təsir etdikdə baş verir.

Əməliyyatın qiyməti haqqında bazar məlumatı olmayan maliyyə alətlərinin ədalətli dəyərini müəyyən etmək üçün pul axınlarının diskontlaşdırılması modelindən, həmçinin bazar şərtləri ilə həyata keçirilən analoji əməliyyatlar haqqında məlumatlara və ya investisiya olunan müəssisələrin cari dəyərinə əsaslanan modellərdən istifadə edilir. Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktivlər və ya öhdəliklər üçün aktiv bazarlarda kotirovka olunan (düzəliş edilməyən) qiymətlər ilə qiymətləndirmələr aiddir, (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni, qiymətlər) və ya dolayısı ilə (yəni, qiymətlər əsasında hesablananlar) müşahidə edilə bilən əhəmiyyətli ilkin məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları ilə qiymətləndirmələr aiddir (iii) 3-cü Səviyyəyə aid olan qiymətləndirmələr yalnız müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmır (yəni, qiymətləndirmə üçün əhəmiyyətli həcmdə müşahidə oluna bilməyən ilkin məlumatlar tələb edilir). Ədalətli dəyər iyerarxiyasının səviyyələri arasında köçürmələr hesabat dövrünün sonunda baş vermiş hesab edilir.

*Əməliyyat xərcləri* əlavə xərcləri əks etdirir və birbaşa olaraq maliyyə alətinin alışı, buraxılması və ya satışı ilə əlaqəlidir. Əlavə xərc əməliyyat həyata keçirilmədiyi təqdirdə yaranmayan xərclərdir. Əməliyyat xərclərinə agentlərə (satış üzrə agentlər kimi fəaliyyət göstərən işçilər daxil olmaqla), məsləhətçilərə, brokerlərə və dilerlərə ödənilmiş haqq və komissiyalar, tənzimləyici orqanlar və fond birjalarına ödəmələr, eləcə də mülkiyyət hüququnun köçürülməsi üzrə vergilər və rüsumlar daxildir. Əməliyyat xərclərinə borc öhdəlikləri üzrə mükafat və ya diskontlar, maliyyələşdirmə xərcləri, daxili inzibati və ya saxlama xərcləri daxil edilmir.

*Amortizasiya olunmuş dəyər (AD)* əsas məbləğ üzrə ödənişlərin çıxılmasından və hesablanmış faizlərin əlavə edilməsindən, maliyyə aktivləri üçün isə ehtimal olunan kredit zərərləri üzrə ehtiyatın çıxılmasından sonra maliyyə alətinin ilkin tanınma zamanı qeydə alınan dəyəridir. Hesablanmış faizlərə ilkin tanınma zamanı təxirə salınmış əməliyyat xərclərinin və effektiv faiz dərəcəsi metodundan istifadə etməklə ödənilməli məbləğ üzrə hər hansı mükafat və ya diskontun amortizasiyası daxildir. Hesablanmış faiz gəlirləri və faiz xərcləri, o cümlədən hesablanmış kupon gəlirləri və amortizasiya edilmiş diskont və ya mükafat (verilmə zamanı təxirə salınmış komissiyalar daxil olmaqla, əgər varsa) ayrıca göstərilmir və maliyyə vəziyyəti haqqında hesabatda müvafiq maddələrin qalıq dəyərinə daxil edilir.

*Effektiv faiz metodu* maliyyə alətinin qalıq dəyəri üzrə sabit faiz dərəcəsinin (effektiv faiz dərəcəsi) təmin edilməsi üçün faiz gəlirləri və ya xərclərinin müvafiq dövr ərzində uçota alınması metodudur. Effektiv faiz dərəcəsi gələcək pul ödənişləri və ya daxilolmalarını (kreditlər üzrə gələcək zərərlər istisna olmaqla) maliyyə alətinin fəaliyyət müddəti və ya daha qısa müddət ərzində maliyyə alətinin ümumi qalıq dəyərinə diskontlaşdıran dərəcədir. Effektiv faiz dərəcəsi maliyyə aləti üçün nəzərdə tutulan dəyişkən faiz dərəcəsi üzrə kredit spredini əks etdirən mükafatlar və ya diskont və yaxud bazar qiymətlərindən asılı olaraq müəyyən edilməyən digər dəyişkən amillər istisna olmaqla, faiz dərəcələrinin növbəti dəyişdirilmə tarixinə qədər dəyişkən faizli alətlər üzrə pul vəsaitlərinin hərəkətini diskont etmək üçün istifadə edilir. Belə mükafatlar və ya diskontlar maliyyə alətinin gözlənilən tədavül müddəti ərzində amortizasiya edilir. Diskont dəyərinin hesablanmasına müqavilə tərəfləri arasında ödənilmiş və ya alınmış effektiv faiz dərəcəsinin tərkib hissəsini təşkil edən bütün komissiyalar daxildir.

**Maliyyə alətlərinin ilkin tanınması**

MZVƏD kateqoriyasında ölçülən maliyyə alətləri ilkin olaraq ədalətli dəyərlə tanınır. Bütün digər maliyyə alətləri əməliyyat xərcləri də daxil olmaqla, ilkin olaraq ədalətli dəyərlə tanınır. İlkin tanınma zamanı ədalətli dəyər ən yaxşı olaraq əməliyyat qiyməti ilə təsdiqlənir. İlkin tanınma zamanı gəlir və ya zərər yalnız ədalətli dəyər ilə əməliyyat qiyməti arasında fərq olduqda qeydə alınır. Əməliyyat qiyməti eyni maliyyə aləti ilə aparılan digər müşahidə oluna bilən cari bazar əməliyyatları və ya əsas məlumat kimi yalnız müşahidə edilə bilən bazarların məlumatlarını istifadə edən qiymətləndirmə modeli ilə təsdiqlənir. İlkin tanınmadan sonra amortizasiya olunmuş dəyərlə qiymətləndirilən maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərləri üçün ehtiyat tanınır.

**Maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə qiymətləndirilməsi**

Agentlik maliyyə aktivlərini amortizasiya olunmuş dəyərlə təsnifləşdirir və ölçür. Borc maliyyə aktivlərinin təsnifləşdirilməsi və sonrakı dövrdə ölçülməsi: (i) müvafiq aktivlər portfelinin idarə olunması üçün Agentliyin biznes modelindən və (ii) aktiv üzrə pul axınlarının xüsusiyyətindən asılıdır.

Biznes model Agentliyin pul axınları əldə etməsi məqsədilə aktivlərin idarə edilməsi üçün istifadə etdiyi metodu əks etdirir. Agentliyin məqsədi aktivlərdən yalnız müqavilə üzrə pul axınlarını əldə etməkdir ("müqavilə üzrə pul axınlarının əldə edilməsi üçün aktivin saxlanılması").

Biznes modelin məqsədi müqavilə üzrə pul axınlarının əldə edilməsi olduqda, Agentlik pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişlərindən ibarət olub-olmadığını (YƏMFÖ təhlili) qiymətləndirir.

YƏMFÖ təhlili aktivin ilkin tanınması zamanı həyata keçirilir və sonradan yenidən qiymətləndirilmir. Hazırda Agentliyin MZVƏD və ya digər məcmu gəlir vasitəsilə ədalətli dəyər (DMGVƏD) kateqoriyasında qiymətləndirilən maliyyə aktivləri yoxdur.

**Maliyyə aktivlərinin yenidən təsnifləşdirilməsi**

Maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes model tam dəyişdirildikdə bütün maliyyə alətləri yenidən təsnifləşdirilir. Aktivlərin yenidən təsnifləşdirilməsi perspektiv qaydada – biznes modeldəki dəyişiklikdən sonrakı ilk hesabat dövrünün əvvəlindən tətbiq edilir. Agentlik cari və müqayisəli dövr ərzində öz biznes modelini dəyişdirməmiş və maliyyə aktivlərini yenidən təsnifləşdirməmişdir.

**Maliyyə aktivlərinin dəyərsizləşməsi: ehtimal olunan kredit zərərləri üzrə ehtiyat**

Agentlik amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri üzrə ehtimal olunan kredit zərərlərini (EOKZ) proqnozlar əsasında qiymətləndirir. Agentlik hər bir hesabat tarixində ehtimal olunan kredit zərərlərini qiymətləndirir və kreditlərin dəyərsizləşməsi üzrə ehtiyatı tanıyır.

Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi aşağıdakıları özündə əks etdirir: (i) bir sıra mümkün nəticələrin qiymətləndirilməsi yolu ilə müəyyən edilmiş obyektiv və ehtimal ilə ölçülmüş məbləğ, (ii) pulun zaman dəyəri və (iii) hesabat tarixində keçmiş hadisələr, cari şərtlər və proqnozlaşdırılan gələcək iqtisadi vəziyyət haqqında artıq xərc çəkmədən və ya çalışmadan əldə edilə bilən əsaslandırılmış və təsdiqlənmiş məlumat. Amortizasiya olunmuş dəyərlə ölçülən borc alətləri ehtimal olunan kredit zərərləri üzrə ehtiyat çıxılmaqla, maliyyə vəziyyəti haqqında hesabatda göstərilir.

**Maliyyə aktivlərinin silinməsi**

Maliyyə aktivlərini bərpa etmək üçün Agentliyin bütün praktiki imkanları tükəndikdə və Agentlik belə aktivlərin bərpasına dair gözləntilərin əsaslandırılmadığı qənaətinə gəldikdə, maliyyə aktivləri tam və ya qismən silinir. Aktivlərin silinməsi tanınmanın dayandırılmasını əks etdirir. Agentlik müqaviləyə əsasən ödənilməli məbləğləri bərpa etməyə cəhd etdikdə, lakin həmin məbləğlərin bərpası ilə bağlı əsaslandırılmış gözləntiləri olmadıqda, barəsində hələ də məcburi bərpa tədbirləri görülən maliyyə aktivlərini silə bilər.

**Maliyyə aktivlərinin tanınmasının dayandırılması**

Agentlik aşağıdakı hallarda maliyyə aktivlərinin tanınmasını dayandırır: (i) aktivlər geri alındıqda və ya bu aktivlərlə bağlı pul vəsaitlərinin hərəkəti üzrə hüquqların müddəti başa çatdıqda və ya (ii) Agentlik həmin aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə başqa tərəfə ötürdükdə və ya (iii) Agentlik bu aktivlərin mülkiyyət hüququ ilə əlaqədar bütün risk və faydaları əsas etibarilə ötürmədikdə və ya saxlamadıqda və həmin aktivlər üzrə nəzarət hüququnu özündə saxlamadıqda. Qarşı tərəf satışa məhdudiyyətlər qoymadan aktivi tam olaraq əlaqəli olmayan üçüncü tərəfə satmaq imkanına malik olmadıqda nəzarəti özündə saxlayır.

**Qeyri-maliyyə aktivlərinin dəyərsizləşməsi**

Qeyri-müəyyən istifadə müddəti olan və ya istifadəyə hazır olmayan qeyri-maddi aktivlər üzrə amortizasiya hesablanmır və belə aktivlər hər il dəyərsizləşməyə görə təhlil edilir. Amortizasiya hesablanan əsas vəsaitlər və qeyri-maddi aktivlər qalıq dəyərinin bərpa edilə bilmədiyini göstərən hadisə və ya şərait dəyişiklikləri baş verdikdə dəyərsizləşməyə görə təhlil edilir. Dəyərsizləşmə zərəri aktivin qalıq dəyərinin onun bərpa edilə bilən dəyərindən artıq olduğu məbləğdə tanınır. Aktivin bərpa edilə bilən dəyəri onun ədalətli dəyəri və satış üzrə məsrəfləri çıxılmaqla istifadə dəyərindən daha yüksək olan dəyəridir.

Dəyərsizləşməni müəyyən etmək üçün aktivlər əhəmiyyətli dərəcədə sərbəst pul vəsaitləri yaradan ən kiçik aktivlər (pul vəsaiti yaradan vahidlər) üzrə qruplaşdırılır. Qeyri-maliyyə aktivlərinin əvvəlki dövrlərdə dəyərsizləşməsinin bərpa olunma ehtimalı hər bir hesabat tarixində təhlil edilir.

**Maliyyə öhdəliklərinin qiymətləndirilmə kateqoriyaları**

Agentliyin maliyyə öhdəlikləri amortizasiya olunmuş dəyərlə ölçülür və maliyyə vəziyyəti haqqında ilkin hesabatda göstərilən "kreditor borcları və digər ödəniləcək vəsaitlər" və "icarə öhdəliyi"ndən ibarətdir.

**Maliyyə öhdəliklərinin tanınmasının dayandırılması**

Maliyyə öhdəliyinin tanınması öhdəlik icra edildiyi halda dayandırılır (yəni, müqavilədə göstərilən öhdəlik yerinə yetirildikdə, ləğv edildikdə və ya icra müddəti başa çatdıqda).

Agentlik ilə onun əvvəlki kreditorları arasında şərtləri əhəmiyyətli dərəcədə fərqli olan borc alətlərinin mübadiləsi, eləcə də mövcud maliyyə öhdəliklərinin şərtlərinin əhəmiyyətli dərəcədə dəyişdirilməsi ilkin maliyyə öhdəliyinin icrası və yeni maliyyə öhdəliyinin tanınması kimi uçota alınır. Şərtlər o halda əhəmiyyətli dərəcədə dəyişmiş hesab olunur ki, alınmış və ilkin effektiv faiz metodu ilə diskontlaşdırılmış bütün ödənilmiş komissiyalar daxil olmaqla, yeni şərtlərə əsasən nağd pul axınlarının diskontlaşdırılmış cari dəyəri ilkin maliyyə öhdəliyi üzrə qalan nağd pul axınlarının diskontlaşdırılmış cari dəyərindən ən azı 10% fərqlənsin. Borc alətlərinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınarsa, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin icrası üzrə mənfəət və ya zərərdə tanınır. Borc alətinin mübadiləsi və ya şərtlərinin dəyişdirilməsi öhdəliyin icrası kimi nəzərə alınmadıqda, bütün xərclər və ya ödənilmiş komissiyalar öhdəliyin qalıq dəyərinə düzəliş kimi əks etdirilir və modifikasiya edilmiş öhdəliyin qalan müddəti ərzində amortizasiya edilir.

Öhdəliklərin icrası ilə nəticələnməyən dəyişikliklər əvvəlki tarixlə məcmu amortizasiyanın hesablanması metodu ilə təxmini göstəricinin dəyişməsi kimi uçota alınır və bu zaman gəlir və ya zərər qalıq dəyərindəki fərqin iqtisadi mahiyyəti səhmdar ilə kapital əməliyyatlarına aid edilmədiyi təqdirdə mənfəət və ya zərərdə əks etdirilir.

**Maliyyə alətlərinin əvəzləşdirilməsi**

Maliyyə aktiv və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi tanınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququn, eləcə də əvəzləşdirməni aparmaq və ya aktivi realizasiya edərkən müvafiq öhdəliyi də satmaq niyyətinin mövcud olduğu hallarda həyata keçirilə bilər. Belə əvəzləşdirmə hüququ (a) gələcək hadisələrdən asılı olmamalı və (b) aşağıdakı bütün hallarda hüquqi qüvvəyə malik olmalıdır: (i) adi fəaliyyət gedişində (ii) defolt halı olduqda və (iii) ödəniş qabiliyyəti olmadıqda və ya müflisləşmə baş verdikdə.

**İcarələr**

Müqavilə bağlanarkən, Agentlik müqavilənin icarə müqaviləsi olduğunu və ya icarə elementləri ehtiva etdiyini qiymətləndirir. Bu hal, müqavilənin müəyyən bir ödəniş müqabilində müəyyən edilmiş aktivin təyin edilmiş bir müddət ərzində istifadəsinə nəzarət etmək hüququnun əldə edilməsi zamanı baş verir.

**Agentlik icarəçi qismində**

Agentlik qısa müddətli icarələr və aşağı dəyərli aktivlərin icarəsi istisna olmaqla, bütün icarələr üçün vahid tanıma və ölçmə yanaşmasını tətbiq edir. Agentlik icarə ödənişlərini həyata keçirmək üçün icarə öhdəliklərini, eləcə də əsas aktivlərdən istifadə hüququnu təmin edən istifadə hüququ olan aktivləri tanıyır.

**İstifadə hüququ olan aktivlər**

Agentlik istifadə hüququ olan aktivləri icarənin başlanğıc tarixində tanıyır (əsas aktivin istifadə üçün mövcud olduğu tarix). İstifadə hüququ olan aktivlər yığılmış amortizasiya və dəyərsizləşmə zərərləri çıxılmaqla maya dəyəri ilə ölçülür və icarə öhdəliklərinin yenidən ölçülməsi üçün tənzimlənir. İstifadə hüququ olan aktivlərin dəyərinə tanınmış icarə öhdəliklərinin məbləği və alınmış icarə təşviqləri çıxılmaqla başlama tarixinə qədər və ya daha əvvəl edilmiş icarə ödənişləri daxildir. İstifadə hüququ olan aktivlər icarə müddəti ərzində düz xətt əsasında amortizasiya olunur.

İcarəyə götürülmüş aktivin mülkiyyəti icarə müddətinin sonunda Agentliyə keçirsə və ya dəyəri bir alış opsiyasının həyata keçirilməsini əks etdirirsə, amortizasiya aktivin təxmin edilən faydalı ömrü istifadə olunmaqla hesablanır. İstifadə hüququ olan aktivlər də dəyərsizləşməyə məruz qalır.

***İcarə öhdəlikləri***

İcarənin başlanğıc tarixində Agentlik, icarə müddəti ərzində həyata keçiriləcək icarə ödənişlərinin cari dəyəri ilə ölçülmüş icarə öhdəliklərini tanıyır. İcarə ödənişlərinə, hər hansı alınacaq güzəştli icarə ödənişləri, indeksdən və ya dərəcədən asılı olan dəyişkən icarə ödənişləri çıxılmaqla qalıq dəyər zəmanəti ilə ödənilməsi ehtimal olunan məbləğlər daxil olmaqla sabit ödənişlər (maddi sabit ödənişlər daxil olmaqla) daxildir. İcarə ödənişlərinə, həmçinin Agentlik tərəfindən həyata keçirilməsinə əsaslı olaraq müəyyən edilmiş satınalma opsionunun icra qiyməti və icarə müddəti Agentliyin ləğv etmə seçimini həyata keçirdiyini əks etdirirsə, icarəyə xitam verildiyi hallarda tətbiq olunan cərimələrin ödənişləri də daxildir.

İndeksdən və dərəcədən asılı olmayan dəyişkən icarə ödənişləri, ödənişə səbəb olan hadisə və ya şərtin baş verdiyi dövrdə xərc olaraq (mal və material ehtiyatlarının istehsalı üçün çəkilmədiyi təqdirdə) tanınır.

İcarə ödənişlərinin cari dəyərini hesablayarkən, icarəyə aid olan konkret faiz dərəcəsinin təyin olunması mümkün olmadığı üçün Agentlik icarə müqaviləsinin qüvvəyə mindiyi tarixdə mövcud olan əlavə borcun cəlb edilməsi üzrə faiz dərəcəsindən istifadə edir. Müqavilənin qüvvəyə mindiyi tarixdən sonra, icarə öhdəliklərinin məbləği faizlərin artmasını əks etdirmək üçün artırılır və edilmiş icarə ödənişləri üçün azaldılır. Bundan əlavə, icarə öhdəliklərinin qalıq dəyəri hər hansı bir modifikasiya və ya icarə müddətində, eləcə də icarə ödənişlərində hər hansı bir dəyişiklik olduqda (bu cür icarə ödənişlərini təyin etmək üçün istifadə olunan indeks və ya faiz dərəcəsindəki dəyişiklik nəticəsində gələcək ödənişlərdə dəyişikliklər) və ya əsas aktivin satın alınması üçün hər hansı bir seçimin qiymətləndirilməsi üzrə dəyişiklik olduğu təqdirdə, yenidən ölçülür.

**Kreditor borcları və digər ödəniləcək vəsaitlər**

Kreditor borcları və digər ödəniləcək vəsaitlər qarşı tərəfin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirməsi zamanı hesablanır və ilkin olaraq ədalətli dəyərdə sonra isə effektiv faiz metoduna əsasən amortizasiya olunmuş dəyərdə qeydə alınır.

**Nizamnamə kapitalı**

Agentliyin nizamnamə kapitalı 100% Azərbaycan Respublikasına məxsusdur.

**Maliyyə gəlirləri və xərcləri**

Maliyyə xərcləri icarə öhdəlikləri üzrə faiz xərclərindən ibarətdir.

**İşçi heyəti ilə bağlı ödənişlər**

Əmək haqları, Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fonduna ödənişlər, məzuniyyət və xəstəlik vərəqələri üzrə illik ödənişlər, mükafatlar və pul şəklində olmayan imtiyazlar Agentliyin işçiləri tərəfindən müvafiq xidmətlərin göstərildiyi ildə hesablanır. Agentliyin yerli qanunvericiliklə müəyyən edilmiş haqlar üzrə ödənişlərdən başqa pensiya və analoji ödənişləri həyata keçirmək üçün hər hansı hüquqi və ya işgüzar praktikadan yaranan öhdəliyi yoxdur.

**Öhdəliklər və xərclər üzrə ehtiyatlar**

Öhdəliklər və xərclər üzrə ehtiyatlara qeyri-müəyyən müddətə və ya məbləğə malik olan qeyri-maliyyə öhdəlikləri daxildir. Agentlik keçmiş hadisələr nəticəsində hüquqi və ya işgüzar praktikadan irəli gələn öhdəliklərə malik olduqda, həmin öhdəliklərin yerinə yetirilməsi üçün Agentlik tərəfindən iqtisadi resursların sərf olunması ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə ehtiyatlar hesablanır.

Ehtiyatlar vergidən əvvəlki faiz dərəcəsindən istifadə etməklə, öhdəliyin yerinə yetirilməsi üçün zəruri olan xərclərin cari dəyəri ilə qiymətləndirilir. Vergidən əvvəlki faiz dərəcəsi pulun zaman dəyəri üzrə cari bazar qiymətlərini və öhdəliklərə xas olan riskləri əks etdirir. Vaxtın keçməsinə görə ehtiyatlardakı artım faiz xərcləri kimi tanınır.

**Ayrılmış qrantlar**

Ayrılmış qrantlar qrant müqaviləsində öz əksini tapmış bütün şərtlərə əməl edildiyinə dair əsaslı əminlik olduqda xalis xərclər haqqında hesabatda tanınır.

**Dövlət büdcəsindən ayırmalar**

Dövlət büdcəsindən ayırmalar pul qoyuluşları və ya əmlak formasında həyata keçirilir. Agentliyin əldə etdiyi pul vəsaitləri və əmlak ədalətli dəyərdə kapital qoyuluşu kimi tanınır. Ümumi nəzarət altında olan qurumlarla hesablaşmalar birbaşa kapital hesabında tanınır.

**Şərti öhdəliklər**

Şərti öhdəliklər onların satılması üçün iqtisadi resursların sərf olunması ehtimalı böyük olduqda və öhdəliklərin məbləği kifayət qədər dəqiq ölçülə bildikdə maliyyə hesabatlarında tanınır. Şərti aktiv maliyyə hesabatlarında tanınmır, lakin iqtisadi səmərənin daxil olması ehtimal edildikdə maliyyə hesabatlarında açıqlanır.

Agentlik publik hüquqi şəxs kimi mənfəət vergisi, əlavə dəyər vergisi, əmlak vergisi və torpaq vergisinin ödənilməsi öhdəliyindən azaddır. Yalnız sahibkarlıq fəaliyyətindən gəlir əldə edildiyi zaman vergi mükəlləfiyyəti yaranacaqdır.

## 3. UÇOT SİYASƏTİNİN TƏTBİQİ ZAMANI ƏHƏMİYYƏTLİ UÇOT TƏXMİNLƏRİ VƏ FƏRZİYYƏLƏR

Agentliyin maliyyə hesabatlarının hazırlanması hesabat tarixinə təqdim edilən aktiv və öhdəliklərin məbləğlərinə təsir göstərə biləcək və başa çatmış müddət ərzində gəlir və xərclərin təqdim edilmiş məbləğləri üzrə rəhbərlikdən təxminlərin və mülahizələrin verilməsini tələb edir.

Ehtimallar maliyyə hesabatları hazırlanarkən ən son məlumatlara əsaslanan mühakimələri nəzərdə tutur. Gələcək hadisələr haqqında mövcud vəziyyət və ehtimallar Agentliyin nəzarətindən kənarda yaranan bazar dəyişiklikləri və ya şəraitə görə dəyişə bilər. Bu cür dəyişikliklər baş verdikləri zaman Agentlik tərəfindən edilən təxminlərdə öz əksini tapır.

Ən əhəmiyyətli qiymətləndirmələrə əmlak və avadanlıqların amortizasiya olunan ömrü, qeyri-maliyyə və maliyyə aktivlərinin dəyərsizləşməsi, maliyyə alətlərinin ədalətli dəyəri və köhnəlmiş mal-material ehtiyatları, vergi və qanuni təəhhüdlər aiddir. Faktiki nəticələr həmin təxminlərdən fərqli ola bilər.

**Mülahizələr**

Agentliyin mühasibat uçotu siyasətinin tətbiq edilməsi prosesində rəhbərlik maliyyə hesabatlarında tanınmış məbləğlər üzrə ən əhəmiyyətli təsiri olan daxil edilən təxminlərdən başqa aşağıdakı mülahizələri edir.

**Mühakimələr**

***Maliyyə hesabatlılığı çərçivəsinin müəyyən edilməsi***

Agentliyin fəaliyyətini qeyri-kommersiya fəaliyyəti təşkil etməsinə baxmayaraq Agentlik maliyyə hesabatlarını MHBS əsasında hazırlamışdır. Agentlik rəhbərliyi bu qərarı verərkən Mühasibat Uçotu haqqında Azərbaycan Respublikasının qanununa istinad etmişdir.

***Əmlak, tikili və avadanlıqların və qeyri-maddi aktivlərin faydalı iqtisadi ömrü***

Agentlik hər maliyyə ilinin sonunda əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin qalan faydalı iqtisadi ömürlərini qiymətləndirir. Bu aktivlərin nəzərdə tutulan faydalı ömürləri ötən ilin qiymətləndirilməsindən fərqli olduqda, "Uçot Siyasətləri, Uçot Qiymətləndirmələrində Dəyişikliklər və Xətalar" adlı 8 saylı MUBS-ə müvafiq olaraq uçot təxminlərində dəyişiklik olaraq uçota alınır. Belə təxminlərin əmlak, tikili və avadanlıqlar və qeyri-maddi aktivlərin qalıq dəyərlərinin məbləğləri və xalis xərclər haqqında hesabatda tanınmış amortizasiya üzrə təsirləri olur.

***İcarə öhdəliklərinin qiymətləndirilməsi və istifadə hüququ olan aktivlər***

16 saylı MHBS-nin tətbiqi aktivlər və icarə öhdəliklərindən istifadə hüququna dair mülahizələr aparmağı tələb edir. İcarə müddətini təyin edərkən, Agentlik yeniləmə seçimlərini həyata keçirmək üçün iqtisadi stimul yaradan bütün amilləri və halları (və ya ləğvetmə seçimlərini etməməyi) nəzərə alır. Müqavilənin icarə elementlərinə malik olub-olmadığını qiymətləndirmək də mühakimə tələb edir. İcarə öhdəliklərini hesablamaq məqsədilə istifadə olunan müvafiq diskont dərəcəsini müəyyənləşdirmək üçün təxminlərin edilməsi tələb olunur.

## 4. YENİ VƏ YA YENİDƏN İŞLƏNMİŞ STANDARTLARIN VƏ ONLARA DAİR ŞƏRHLƏRİN TƏTBİQİ

Cari ildə Agentlik Beynəlxalq Mühasibat Uçotu Standartları Şurası (MUBSŞ) və MUBSŞ-nin Beynəlxalq Maliyyə Hesabatlarının Şərhləri Komitəsi (BMHŞK) tərəfindən qəbul edilmiş, Agentliyin fəaliyyəti üçün münasib olan və 31 dekabr 2025-ci il tarixində başa çatacaq il üzrə hesabat dövrünə şamil olunan bütün yeni və yenidən işlənilmiş standartları və onlara dair şərhləri qəbul etmişdir.

**17 saylı MHBS "Sığorta müqavilələri"** 2017-ci ilin may ayında dərc olunmuşdur və 4 saylı MHBS "Sığorta müqavilələri"ni əvəz edir. Yeni standart sığorta müqavilələrinin tanınması, ölçülməsi, təqdim edilməsi və açıqlanması prinsiplərini müəyyən edir. Müəssisə buraxdığı təkrarsığorta müqavilələri də daxil olmaqla sığorta müqavilələrinə; əlində olan təkrarsığorta müqavilələrinə; imtiyazlı iştirak xüsusiyyətləri ilə buraxdığı investisiya müqavilələrinə; müəssisənin bağladığı sığorta müqavilərinə "Sığorta müqavilələri" adlı 17 saylı MHBS-i tətbiq etməlidir. Bu standart Agentliyə şamil olunmur.

**Uçot Siyasətinin Açıqlanması – 1 saylı BMUS və 2 saylı MHBS Metodik Sənədi** – 2021-ci ilin fevral ayında BMUSŞ 1 saylı BMUS və "Əhəmiyyətlilik haqqında mühakimələrin yürüdülməsi " adlı 2 saylı MHBS Metodik Sənədə düzəlişlər etmişdir. Bu düzəlişlər müəssisələrə uçot siyasəti haqqında açıqlamalar edərkən əhəmiyyətliliklə bağlı mühakimələrin tətbiq edilməsinə kömək edilməsi məqsədilə təlimat və nümunələri təqdim edir. Düzəlişlər müəssisələr üçün "əhəmiyyətli" uçot siyasətləri haqqında məlumatın açıqlanması tələbini onların "əhəmiyyətli" uçot siyasətinin açıqlanması tələbi ilə əvəz etməklə və mühasibat uçotu siyasəti ilə bağlı açıqlamalar barədə qərar qəbul edərkən müəssisələrin uçot siyasəti haqqında daha faydalı məlumatı açıqlamaqda kömək etmək məqsədi daşıyır.

**Uçot təxminlərinin müəyyən edilməsi – 8 saylı BMUS-a edilən Düzəlişlər** – 2021-ci ilin fevral ayında BMUSŞ "uçot təxminləri" anlayışını təqdim edən 8 saylı BMUS-a düzəlişi dərc etmişdir. Düzəlişlər müəssisələrin uçot siyasətindəki dəyişiklikləri uçot təxminlərindəki dəyişikliklərdən necə fərqləndirməli olduğunu və xətaların aradan götürülməsini izah edir. Həmçinin, bu düzəlişlər mühasibat uçotu təxminlərini hazırlamaq üçün müəssisələrin ölçmə üsullarından və giriş məlumatlarından necə istifadə etdiyini aydınlaşdırır.

**Eyni əməliyyatdan yaranan aktiv və öhdəliklərə aid təxirə salınmış vergilər – 12 saylı BMUS-a edilən Düzəlişlər** - 2021-ci ilin may ayında Şura 12 saylı MUBS-ə uyğun olaraq ilkin tanınma istisnasının əhatə dairəsini azaldan 12 saylı MUBS-ə düzəlişlər etdi, beləliklə, o, vergi bazasını artıran və azaldan bərabər məbləğdə müvəqqəti fərqlərə səbəb olan əməliyyatlara artıq tətbiq edilmir.

Düzəlişlər təqdim edilən ən erkən müqayisəli dövrün əvvəlində və ya ondan sonra baş verən əməliyyatlara tətbiq edilməlidir. Bundan əlavə, təqdim olunan ən erkən müqayisəli dövrün əvvəlində icarə və istismardan çıxarma öhdəlikləri ilə bağlı bütün gəlirdən çıxılan və vergiyə cəlb olunan müvəqqəti fərqlər üçün təxirə salınmış vergi aktivi (kifayət qədər vergi tutulan mənfəətin olması şərtilə) və təxirə salınmış vergi öhdəliyi də tanınmalıdır.

**Beynəlxalq vergi islahatı – İki mərhələli model qaydaları – 12 saylı MUBS-a düzəlişlər** – 2023-cü ilin may ayında Şura 12 saylı MUBS-a düzəlişlər tətbiq etmişdir, 12 saylı MUBS-a əsasən İki mərhələli mənfəət vergiləri ilə əlaqədar təxirə salınmış vergi aktivləri və öhdəliklərinin tanınması və açıqlanması ilə bağlı məcburi istisnalar tətbiq olunur. Bu düzəlişlərə əsasən 12 saylı MUBS-a icbari istisnalar tətbiq olunur, belə ki, düzəlişə əsasən müəssisələr İki mərhələli gəlir vergiləri ilə əlaqədar olan təxirə salınmış vergi aktivləri və öhdəliklərinin tanınması və açıqlanmasından azaddır. Düzəlişlərə əsasən 12 saylı MUBS İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT) tərəfindən təqdim olunan İki mərhələli model qaydalarını icra edən qanunvericilik əsasında yaranan mənfəət vergilərinə şamil olunur. Açıqlanma tələbləri daha sonra qüvvəyə mindiyi halda, müəssisələr istisnanın tətbiqini açıqlamalı və ayrılıqda İki Mərhələli mənfəət vergiləri ilə əlaqədar olan cari vergi xərcləri haqqında ətraflı məlumat verməli və qüvvədə olan və gələcək dövrlər üzrə İki mərhələli mənfəət vergilərinə məruz qalma haqqında məlumatı təqdim etməlidirlər. 31 dekabr 2025-ci il tarixində və ya ondan əvvəl

başa çatmış istənilən aralıq dövr istisna olmaqla, keçid müddəaları 1 yanvar 2025-ci il tarixi və ya ondan sonra başlayacaq illik hesabat dövləri üçün tətbiq oluna bilən xüsusi açıqlama tələbləri ilə dərhal və retrospektiv qaydada tətbiq olunur.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Agentliyin maliyyə hesabatlarına heç bir əhəmiyyətli təsiri olmamışdır.

## 5. DƏRC OLUNMUŞ, LAKİN HAZIRDA QƏBUL OLUNMAMIŞ STANDARTLAR VƏ ŞƏRHLƏR

Hazırkı maliyyə hesabatlarının təsdiq edilməsi tarixində Agentlik tərəfindən, qüvvəyə minən tarixdən əvvəl qəbul edilmiş standart və şərhlərdən əlavə, aşağıda göstərilən standart və şərhlər dərc edilmiş, lakin qüvvəyə minməmişdir.

BMUSŞ, satış kimi uçota alınması nəzərdə tutulan 15 saylı MHBS-in tələblərinə cavab verən satış və geri icarə əməliyyatlarını sonradan satıcı-icarədarın necə ölçməsini aydınlaşdırmaq üçün **"Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi"ni (16 saylı** MHBS**-yə edilən Düzəlişlər)** düzəlişlərlə birgə dərc etmişdir. **Satış və Geri İcarə üzrə İcarə Öhdəliyi (16 saylı MHBS-yə edilən Düzəlişlər)** satıcı-icarədardan istifadə hüququnu özündə saxlayan hər hansı gəlir və ya zərər məbləğini tanımamaq üçün geri icarədən irəli gələn icarə öhdəliyini sonradan ölçməsini tələb edir. Yeni tələblər satıcı-icarədarı icarənin qismən və ya tam xitam verilməsi ilə bağlı hər hansı gəlir və ya zərəri mənfəət və ya zərərdə tanınmasını qadağa etmir. Düzəlişlər 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir. Düzəlişlərin daha erkən tətbiqinə icazə verilir.

**1 saylı MUBS-a düzəlişlər: Öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsi -** 2020-ci ilin yanvar və 2022-ci ilin oktyabr aylarında BMUSŞ öhdəliklərin cari və ya uzunmüddətli olaraq təsnifləşdirilməsinə dair tələbləri müəyyən etmək üçün 1 saylı MUBS-un 69-76-cı bəndlərinə düzəlişlər dərc etmişdir. Düzəlişlər aşağıdakı məsələlər üzrə məlumat təqdim edir:

- Ödənişin təxirə salınması hüququ dedikdə nəzərdə tutulan müddəalar;
- Hesabat dövrünün sonunda təxirəsalma hüququ mövcud olmalıdır;
- Müəssisənin təxirəsalma hüququndan istifadə etmə ehtimalı təsnifata heç bir təsir göstərmir;
- Yalnız konvertasiya edilə bilən öhdəliyə daxil edilmiş törəmə alətin özü kapital aləti olduqda, öhdəliyin şərtləri onun təsnifatına təsir etmir.

Əlavə olaraq, kredit sazişindən yaranan öhdəlik uzunmüddətli olaraq təsnif olunduqda və müəssisənin ödənişi təxirə salmaq hüququ on iki ay ərzində gələcək müqavilələrə riayət olunmasından asılı olduqda, açıqlama tələb edilməsi üçün tələb irəli sürülür.

Düzəlişlər 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir və retrospektiv qaydada tətbiq olunur.

2023-cü ilin may ayında BMUSŞ **"Təchizatçının maliyyələşdirilməsi üzrə razılaşmalar"ı dərc etmişdir (7 saylı MUBS və 7 saylı MHBS-yə edilmiş düzəliş)** – Bu düzəlişlər təchizatçının maliyyə razılaşmalarının şəffaflığının artırılması və onların müəssisənin öhdəliklərinə, pul vəsaitlərinin hərəkətinə və likvidlik riskinə məruz qalmasına təsiri barəsində açıqlamalar tələb edir. Açıqlama tələbləri, bəzi şirkətlərin təchizat üzrə maliyyə razılaşmalarının kifayət qədər nəzərə çarpmamasının səhmdarların təhlilinə manеə törətməsi üzrə səhmdarların narahatlığına BMUSŞ-nin verdiyi cavabdır. Düzəlişlər 1 yanvar 2025-ci il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün, birinci il keçid dövrü ilə əlaqədar güzəştlər olmaqla qüvvəyə minir.

2023-cü ilin avqust ayında BMUSŞ valyutanın digər bir valyutaya konvertasiya olunması və valyuta konvertasiya oluna bilmədikdə müəssisənin spot məzənnəni qiymətləndirmə qaydası haqqında açıqlama vermək üçün **"Xarici valyuta məzənnələrində dəyişikliklərin təsiri" adlı 21 saylı MUBS-a**

**düzəliş** dərc etmişdir. Müəssisə xüsusi bir məqsədlə qiymətləndirmə tarixində digər bir valyutaya konvertasiya oluna bilməyən xarici valyutada köçürmə və ya əməliyyat həyata keçirərsə, düzəlişlərin təsirinə məruz qala bilər. Normal inzibati təxirəsalma ilə başqa bir valyuta əldə etmək imkanı olarsa, valyutanın mübadiləsi mümkündür və əməliyyat icra oluna bilən hüquq və öhdəliklər yaradan bazar və ya mübadilə mexanizmi vasitəsilə həyata keçirilir. Düzəlişlər, erkən tətbiqetmə seçimi mövcud olmaqla, 1 yanvar 2026-cı il və ya bu tarixdən sonra başlayan illik hesabat dövrləri üçün qüvvəyə minir.

9 aprel 2024-cü il tarixində BMUSŞ müəssisələrin fəaliyyəti haqqında hesabatın müqayisəliliyi və şəffaflığı ilə bağlı investorların suallarına cavab olaraq - **"Maliyyə Hesabatlarının Təqdimatı və Açıqlanması" adlı 18 saylı MHBS** yeni standartını dərc etmişdir. 18 saylı MHBS-də təqdim olunan yeni tələblər bənzər müəssisələrin maliyyə fəaliyyətinin, xüsusilə də "əməliyyat mənfəət və ya zərəri" ilə bağlı məsələlərin müqayisəli məlumatlarını əldə etməyə yardım edəcək. 18 saylı MHBS-ə daxil edilən əsas yeni müddəalar aşağıdakı məsələləri əhatə edir:

- Mənfəət və ya zərər hesabatının strukturu;
- Müəssisənin maliyyə hesabatlarından kənar məruzə olunan müəyyən mənfəət və ya zərər ilə bağlı maliyyə hesabatlarında tələb olunan açıqlamalar (rəhbərlik tərəfindən müəyyən edilən fəaliyyət tədbirləri); və
- Ümumilikdə əsas maliyyə hesabatları və qeydlərinə tətbiq olunan cəmləşdirmə və bölünmə üzrə gücləndirilmiş prinsiplər.

18 saylı MHBS 1 saylı MUBS-u əvəz edəcək; 1 saylı MUBS üzrə bir sıra mövcud prinsiplər məhdud sayda dəyişikliklər ilə saxlanmışdır. 18 saylı MHBS maliyyə hesabatlarında qeyd olunan maddələrin tanınması və ya ölçülməsinə təsir göstərməyəcək, lakin bu standart müəssisənin "əməliyyat mənfəəti və ya zərər" hesabatlarında dəyişikliyə səbəb ola bilər.

18 saylı MHBS 1 yanvar 2027-ci il tarixində başlayan və həmin tarixdən sonrakı hesabat dövrlərinə və həmçinin müqayisəli məlumatlara tətbiq olunur.

2024-cü ilin may ayında BMUSŞ tərəfindən **19 saylı "İctimai Maliyyə Hesabatlılığı olmayan Törəmə Müəssisələr: Məlumatların Açıqlanması"** adlı yeni standartı dərc edilmişdir, bu standarta əsasən törəmə müəssisə maliyyə hesabatlarına MHBS üzrə Uçot Standartlarını tətbiq edərkən maliyyə məlumatlarına dair qısaldılmış açıqlamalar təqdim edə bilər. 19 saylı MHBS törəmə müəssisələrin seçimi əsasında tətbiq edilir və bu standartı tətbiq etməyi seçən törəmə müəssisələr üçün məlumatların açıqlanması tələblərini müəyyən edir.

Müəssisəyə yalnız aşağıdakı hallarda 19 saylı MHBS-nin tətbiqinə icazə verilir:

- törəmə müəssisə olmalı;
- ictimai hesabatlılığı olmamalıdır; və
- onun birbaşa və ya hər hansı vasitəçi ana müəssisəsi MHBS Uçot Standartlarına uyğun olan konsolidasiya olunmuş maliyyə hesabatlarını hazırlamalıdır.

Yeni standart 1 yanvar 2027-ci il tarixinə və ya ondan sonrakı hesabat dövrlərinə şamil olunur, erkən tətbiqinə icazə verilir.

**"Konsolidasiya olunmuş maliyyə hesabatları" adlı 10 saylı MHBS və "Səhmdar və onun asılı və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya ötürülməsi" adlı 28 saylı MUBS (düzəlişlər):** 10 saylı MHBS və 28 saylı MUBS-a edilən düzəlişlər səhmdar, onun asılı və ya birgə müəssisəsi arasında aktivlərin satışı və ya ötürülməsi üzrə halları özündə əks etdirir. Düzəlişlər xüsusi olaraq kapital metodu ilə uçota alınmış, asılı və ya birgə müəssisələrlə biznes əməliyyatları aparmayan törəmə müəssisə üzərində nəzarətin itirilməsi ilə bağlı olan gəlir və zərərlərin, ana müəssisənin mənfəət və

zərər hesabatında, əlaqəsi olmayan səhmdarların həmin əlaqəli və ya birgə müəssisədə olan payları çərçivəsində tanınmasını göstərir.

Eynilə, istənilən keçmiş törəmə müəssisədə (kapital metodundan istifadə etməklə asılı və ya birgə müəssisəyə çevrildikdə) saxlanılan investisiyaların ədalətli dəyərlə yenidən ölçülməsindən irəli gələn gəlir və ya zərər yalnız əlaqəsi olmayan səhmdarların yeni asılı və ya birgə müəssisədə olan payları çərçivəsində, ana müəssisənin mənfəət və ya zərər hesabatında tanınır. Düzəlişlərin qüvvəyə minmə tarixi BMUSŞ tərəfindən hələ müəyyən edilməmişdir, lakin düzəlişlərin erkən tətbiqinə icazə verilir.

Əksi göstərilmədiyi təqdirdə, yeni standartların Agentliyin maliyyə hesabatlarına hər hansı əhəmiyyətli təsir göstərməsi gözlənilmir.

## 6. ƏLAQƏLİ TƏRƏFLƏRLƏ BAĞLI ƏMƏLİYYATLAR VƏ QALIQLAR

Agentlik dövlət müəssisələri ilə əlaqədar "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı MUBS əsasında əlaqəli tərəflə əməliyyatlar və cari qalıqlar, o cümlədən təəhhüdlər ilə bağlı müəyyən məlumatların açıqlanması tələblərindən istisnanı tətbiq etmişdir. Hər bir əlaqəli tərəf ilə bağlı münasibətləri nəzərdən keçirərkən əsas diqqət sadəcə hüquqi formaya deyil, əsasən bu münasibətlərin məzmununa yönəldilir. Agentliyin bilavasitə nəzarətçi tərəfi Azərbaycan Respublikası Hökumətidir.

Agentlik dövlət ilə əlaqəli qurumlar üçün açıqlama tələbi ilə əlaqədar "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı MUBS-un 25-ci bəndində qeyd olunmuş güzəştdən istifadə etmişdir.

Hesabat təqdim edən müəssisə əlaqəli tərəf əməliyyatları və öhdəliklər də daxil olmaqla, qalıq borclarla əlaqəli "Əlaqəli tərəflər haqqında məlumatların açıqlanması" adlı 24 saylı MUBS-un 18-ci bəndinin açıqlama tələblərindən aşağıdakılar ilə birlikdə azaddır:

(a) hesabat təqdim edən müəssisə nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olan hökumət; və
(b) eyni hökumətin həm təqdim edən müəssisənin, həm də digər təşkilatın nəzarəti və ya birgə nəzarəti və ya üzərində əhəmiyyətli dərəcədə təsiri olduğu üçün əlaqəli tərəf olan başqa bir müəssisə.

Dövlətlə əlaqəli təşkilatlarla əməliyyatların xarakterinə büdcədən ayırmalar, elektrik enerjisi, qaz və digər xidmətlərin alınması daxildir.

***Müşahidə Şurası və Aparatın rəhbər vəzifəli şəxslərinə ödənişlər***

Agentliyin əsas idarəedici heyətinə Müşahidə şurası üzvləri, Agentliyin icraçı direktoru, icraçı direktorun müavini və maliyyə direktoru daxildir. Əsas idarəedici heyətin üzvləri təsdiqlənmiş əmək haqqı cədvəlinə uyğun olaraq əmək haqqı və mükafatlar almaq hüququna malikdirlər. 2025-ci il üzrə əvvəlki üzvlərin üzvlük müddəti birinci rübdə bitmiş, Azərbaycan Respublikası Prezidentinin 30.12.2025-ci il tarixli Sərəncamına əsasən yeni üzvlər 2026-cı ildən fəaliyyətə başlamışdır. 2025-ci il ərzində əsas idarəedici heyətə ödənişlər 24,651.00 AZN təşkil etmişdir (2024-cü il:189.870,00 AZN).

## 7. Pul vəsaitləri və onların ekvivalentləri

| | 2025 | 2024 |
|---|---|---|
| Pul vəsaitləri və onların ekvivalentləri | 641,776.00 | 2,342,759.00 |
| **Cəmi** | **641,776.00** | **2,342,759.00** |

## 8. TORPAQ, TİKİLİ VƏ AVADANLIQLAR

Torpaq, tikili və avadanlıqların qalıq dəyərindəki hərəkətlər aşağıdakı kimidir:

| | Komputer və avadanlıqlar | Nəqliyyat vasitələri | Mebel və qurğular | Cəmi |
|---|---|---|---|---|
| **İlkin dəyər** | | | | |
| **1 yanvar 2024-cü il tarixində qalıq** | **98,750.00** | **67,500.00** | **63,809.00** | **230,059.00** |
| Əlavələr | 897.00 | - | - | **897.00** |
| Silinmələr | 12,229.00 | - | 4,940.00 | **17,169.00** |
| **31 dekabr 2024-cü il tarixində qalıq** | **87,418.00** | **67,500.00** | **58,869.00** | **213,787.00** |
| Əlavələr | 166,840.00 | 7,937.00 | - | **174,777.00** |
| Silinmələr | - | - | - | - |
| **31 dekabr 2025-cü il tarixində qalıq** | **254,258.00** | **75,437.00** | **58,869.00** | **388,564.00** |
| **Yığılmış amortizasiya** | | | | - - |
| **1 yanvar 2024-cü il tarixində yığılmış amortizasiya** | **32,665.00** | **30,375.00** | **16,069.00** | **79,109.00** |
| Amortizasiya xərci | 20,886.00 | 13,500.00 | 7,639.00 | **42,025.00** |
| Silinmələr | 12,229.00 | - | 4,940.00 | **17,169.00** |
| **31 dekabr 2024-cü il tarixində yığılmış amortizasiya** | **41,322.00** | **43,875.00** | **18,768.00** | **103,965.00** |
| Silinmələr | - | - | - | - |
| İl üzrə amortizasiya | 17,484.00 | 15,087.00 | 11,774.00 | 44,345.00 |
| **31 dekabr 2025-cü il tarixində yığılmış amortizasiya** | **58,805.00** | **58,962.00** | **30,542.00** | **148,309.00** |
| **Balans dəyərləri** | | | | - |
| **31 dekabr 2024-cü il tarixində xalis qalıq** | **46,096.00** | **23,625.00** | **40,101.00** | **109,822.00** |
| **31 dekabr 2025-cü il tarixində xalis qalıq** | **195,453.00** | **16,474.00** | **28,327.00** | **240,255.00** |

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı tarixdən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının balansındakı torpaq, tikili və avadanlıqlar Agentliyin balansına verilmişdir.

## 9. QEYRİ-MADDİ AKTİVLƏR

| | Qeyri-maddi aktivlər | Cəmi |
|---|---|---|
| **İlkin dəyər** | | |
| **01.01.2024-cü il tarixinə ilkin dəyər** | **72,109.00** | **72,109.00** |
| Əlavələr | - | - |
| Silinmələr | - | - |
| **31.12.2024-cü il tarixinə ilkin dəyər** | **72,109.00** | **72,109.00** |
| Əlavələr | 158,887.00 | 158,887.00 |
| Silinmələr | - | - |
| **31.12.2024-cü il tarixinə ilkin dəyər** | **230,996.00** | **230,996.00** |
| | | |
| **Yığılmış amortizasiya** | | |
| **01.01.2024-cü il tarixinə yığılmış amortizasiya** | **10,407.00** | **10,407.00** |
| Amortizasiya xərci | 10,269.00 | **10,269.00** |
| Silinmələr | - | - |
| **31.12.2024-cü il tarixinə yığılmış amortizasiya** | **20,676.00** | **20,676.00** |
| Amortizasiya xərci | 7,211.00 | 7,211.00 |
| Silinmələr | - | - |
| **31.12.2025-ci il tarixinə yığılmış amortizasiya** | **27,887.00** | **27,8867.00** |
| | | |
| **31.12.2024-cü il tarixinə balans dəyəri** | **51,433.00** | **51,433.00** |
| **31.12.2025-ci il tarixinə balans dəyəri** | **203,109.00** | **203,109.00** |

## 10. DİGƏR AKTİVLƏR

| | 2025 | 2024 |
|---|---|---|
| Azqiymətli əşyalar | 10,357.00 | 10,893.00 |
| **Cəmi** | **10,357.00** | **10,893.00** |

## 11. İSTİFADƏ HÜQUQU OLAN AKTİVLƏR

İstifadə hüququ olan aktivlərdə hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | 2025 | 2024 |
|---|---|---|
| **İlin əvvəlinə** | **51,012.00** | 187,570.00 |
| Silinmələr | (41,562.00) | - |
| Amortizasiya xərci | (9,450.00) | (136,558.00) |
| **İlin sonuna** | - | **51,012.00** |

İcarə obyektinin gələcək dövr üzrə istifadəsindəki gözlənti dəyişilmiş, qısamüddətli dövr üzrə istifadə ediləcəyi təxmin edilir. Bu səbəblə aktivdən istifadə hüququ silinərək icarə xərci tanınmışdır.

İcarə öhdəliklərindəki hərəkətlər aşağıdakı kimi olmuşdur:

| | 2025 | 2024 |
|---|---|---|
| **İlin əvvəlinə** | **62,298.00** | **212,093.00** |
| Əlavələr | - | - |
| Silinmə | (51,048.00) | 43,815.00 |
| Ödənişlər | (11,250.00) | (193,610.00) |
| **İlin sonuna** | - | **62,298.00** |

## 12. QISAMÜDDƏTLİ KREDİTOR BORCLAR

| | 2025 | 2024 |
|---|---|---|
| Təchizatçılara ödəniləcək qısamüddətli kreditor borcları | 213,289.00 | 133.383,00 |
| QHT-lərə ödəniləcək qısamüddətli kreditor borcları | 26,434.00 | 599.545,00 |
| **Cəmi** | **239,723.00** | **732.928,00** |

## 13. NİZAMNAMƏ KAPİTALI

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanı ilə təsdiq edilmiş Agentliyinin Nizamnaməsinə əsasən 31 dekabr 2025-ci il tarixinə Agentliyin elan edilmiş, lakin ödənilməmiş nizamnamə fondunun miqdarı 134.945,00 AZN təşkil edir (31 dekabr 2024-cü il: 134,945,00 AZN).

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərinə Agentliyin mülkiyyət quruluşu aşağıdakı kimi olmuşdur:

| | 2025 | 2024 |
|---|---|---|
| Azərbaycan Respublikası | 100% | 100% |
| **Cəmi** | **100%** | **100%** |

## 14. DÖVLƏT BÜDCƏSİNDƏN DAXİLOLMALAR

Azərbaycan Respublikası Prezidentinin "Dövlət adından yaradılan publik hüquqi şəxslərə dövlət büdcəsi hesabına məqsədli vəsaitlərin ödənilməsi Qaydası"nın təsdiq edilməsi haqqında 25 dekabr 2019-cu il tarixli 901 nömrəli Fərmanına əsasən hökumət tərəfindən çıxış edən Azərbaycan Respublikası Maliyyə Nazirliyi və Agentlik arasında 2025-ci ildə 6,095,596.00AZN vəsaitin ayrılması ilə bağlı müqavilə imzalanmışdır (2024-cü il: 9,686,498.00 AZN). Ayrılmış və əvvəlki dövrdən qalan vəsaitin 464.019,00 AZN-ni COP29 sessiyası, 6.777.880,00 AZN-i isə QHT-lərə qrant ayrılması və Agentliyin əməliyyat xərclərinin maliyyələşdirilməsi üçün istifadə olunmuşdur.

## 15. İŞÇİ HEYƏTİ İLƏ BAĞLI XƏRCLƏR

| | 2025 | 2024 |
|---|---|---|
| Hesablanmış əmək haqları və digər ödənişlər | (582,592.00) | (623,187.00) |
| Əmək haqqı ilə bağlı sosial vergilər | (133,534.00) | (165,981.00) |
| **Cəmi** | **(716,126.00)** | **(789,168.00)** |

## 16. AYRILMIŞ QRANTLAR

31 dekabr 2025-ci il və 2024-cü il tarixlərində başa çatmış illər üzrə ayrılmış qrantların bölgüsü aşağıdakı kimi olmuşdur:

| | Sayı | 31 dekabr 2025-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| 2025-ci il kiçik qrant müsabiqəsi | 295 | (2,532,500.00) |
| 2025-ci il orta qrant müsabiqəsi | 89 | (1,544,00.00) |
| 2025-ci il böyük qrant müsabiqəsi | 23 | (587,000.00) |
| Səfər qrantı | 23 | (132,352.00) |
| Müsabiqədənkənar | 12 | (1,878,596.00) |
| **Cəmi:** | **442** | **(6,674,948.00)** |

| | Sayı | 31 dekabr 2024-cü il tarixində başa çatmış il üzrə |
|---|---|---|
| 2023-cü il ərzində həyata keçirilmiş kiçik qrant layihələri üzrə qalıq (20%) vəsaitin ödənilməsi | 3 | (16,719.00) |
| 2024- cü il kiçik qrant müsabiqəsi | 353 | (2,960,051.00) |
| 2024- cü il orta qrant müsabiqəsi | 41 | (647,804.00) |
| 2024- cü il böyük qrant müsabiqəsi | 17 | (522,191.00) |
| Səfər qrantı | 35 | (169,626.00) |
| Müsabiqədənkənar | 13 | (419,987.00) |
| **Cəmi:** | **462** | **(4,736,376.00)** |
| **COP29 Layihələri üzrə** | | |
| COP 29 | 10 | (361,500.00) |
| COP29 dövründə Yaşıl zonada keçiriləcək tədbirləri | 4 | (780,216.00) |
| COP 29 tədbirlərinə dəstək- yan tədbirlər üzrə qrant | 2 | (24,810.00) |
| **Cəmi** | **16** | **(1,166,526.00)** |
| **CƏMİ il ərzində** | **478** | **(5,902,902.00)** |

## 17. DİGƏR XƏRCLƏR

| | 2025 | 2024 |
|---|---|---|
| Tədbirlərin keçirilməsi ilə bağlı xərclər | (443,482.00) | (476,589.00) |
| İcarə xərcləri | (156,150.00) | (167,400.00) |
| Təmir xərcləri | - | (17,644.00) |
| Peşəkar xidmətlər | (20,868.00) | (56,430.00) |
| Dəftərxana ləvazimatları xərcləri | (19,758.00) | (19,452.00) |
| Mühafizə xərcləri | (72,471.00) | (72,472.00) |
| Ezamiyyə xərcləri | (82,747.00) | (120,788.00) |
| Rabitə xərcləri | (11,809.00) | (14,577.00) |
| Kommunal xərclər | (19,503.00) | (19,601.00) |
| Yanacaq xərcləri | (3,055.00) | (3,997.00) |
| Bank komissiyası | (3,431.00) | (8,684.00) |
| Sair xərclər | (372,740.00) | (216,219.00) |

## 18. TƏƏHHÜDLƏR, ŞƏRTİ ÖHDƏLİKLƏR VƏ ƏMƏLİYYAT RİSKLƏRİ

### Təəhhüdlər

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixinə Agentlik tərəfindən heç bir maliyyə zəmanəti verilməmişdir. Eyni zamanda hesabat tarixinə Agentliyin kapital xərcləri ilə bağlı öhdəlikləri olmamışdır.

### Şərti öhdəliklər

### Məhkəmə prosesləri

Adi fəaliyyət gedişində vaxtaşırı olaraq Agentliyə qarşı iddialar irəli sürülə bilər. Agentliyin rəhbərliyi öz təxminlərinə əsasən hesab edir ki, bu iddialar ilə bağlı əhəmiyyətli zərər baş verməyəcəkdir və müvafiq olaraq 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixinə hazırkı maliyyə hesabatlarında bu iddialarla bağlı ehtiyat yaradılmamışdır.

### Şərti vergi öhdəlikləri

Azərbaycan Respublikasının vergi, valyuta və gömrük qanunvericiliyi müxtəlif şərhlərə və tez-tez baş verə bilən dəyişikliklərə məruz qalır. Agentliyin əməliyyatları və fəaliyyəti ilə bağlı belə qanunvericiliyə dair rəhbərliyin mövqeyinə müvafiq vergi orqanları tərəfindən etiraz edilə bilər.

Agentliyin rəhbərliyi hesab edir ki, onun tərəfindən müvafiq qanunvericiliyin şərhi düzgündür. Müvafiq olaraq, 31 dekabr 2025-ci il tarixinə mümkün vergi öhdəlikləri üzrə hər hansı ehtiyat qeydə alınmamışdır.

### Agentliyin fəaliyyət mühiti

Agentliyin fəaliyyəti Azərbaycan Respublikasında həyata keçirilir. Agentlik inkişaf etməkdə olan bazarın xüsusiyyətlərini əks etdirən Azərbaycanın iqtisadi və maliyyə bazarları ilə qarşılıqlı fəaliyyət göstərir. Hüquq, vergi və tənzimləyici strukturlar daimi inkişafdadır, bununla belə mütəmadi olaraq

yeni şərhlərə, dəyişikliklərə məruz qalırlar, bu isə öz növbəsində digər hüquqi və maliyyə çətinlikləri ilə birlikdə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin üzləşdiyi problemləri daha da gücləndirir.

Azərbaycan iqtisadiyyatı hələ də beynəlxalq enerji qiymətləri səviyyəsindən əhəmiyyətli dərəcədə asılı olaraq qalır. 2024-cü ilin ilk aylarında xam neftin qiyməti geosiyasi gərginliklər və təchizat zəncirindəki dəyişikliklər səbəbindən artım nümayiş etdirmiş, lakin ilin ikinci rübündən etibarən qlobal tələbin zəifləməsi fonunda müəyyən qədər azalma müşahidə olunmuşdur. "Brent" markalı neftin spot qiyməti 2024-cü ilin ilk beş ayında 1 barel üçün orta hesabla 83–88 ABŞ dolları civarında dəyişmişdir. Neftin nisbətən sabit və yetərli səviyyədə qiymətləri ölkənin iqtisadi inkişafını dəstəkləməyə davam etmişdir.

2015–2016-cı illərdə manatın kəskin dəyər itirməsi biznes mühitində ciddi qeyri-müəyyənliklər yaratmışdı. Bu təcrübədən çıxış edərək, hökumət son illərdə sabit məzənnə siyasətinə üstünlük vermiş və müvafiq maliyyə tədbirlərini davam etdirmişdir. Bu siyasət nəticəsində 2024-cü ildə də dünya bazarlarında neft qiymətlərindəki dəyişkənlik yerli valyutaya ciddi təsir etməmiş, eləcə də biznes mühitində sabitlik qorunub saxlanılmışdır.

Azərbaycan iqtisadiyyatı 2023-cü ildə 1.1% artım nümayiş etdirmişdisə, 2024-cü ilin yanvar-may aylarında artım tempi müəyyən dərəcədə yüksəlmişdir. İlkin rəsmi məlumatlara əsasən, ümumi daxili məhsulda (ÜDM) 2.5–3% civarında artım müşahidə olunmaqdadır. Qeyri-neft və qaz sektorunun artımı davam etmiş, əsas irəliləyiş sənaye, pərakəndə ticarət və nəqliyyat-logistika sahələrində qeydə alınmışdır. Neft və qaz sektorunda isə hasilatın sabit qalması və ya azacıq azalması müşahidə olunur. İstehsal və xidmət sahələrində, xüsusilə sənaye (təxminən 15–20%) və pərakəndə ticarət (7–9%) üzrə əhəmiyyətli irəliləyiş qeydə alınmışdır. Eyni zamanda nəqliyyat və saxlanma, eləcə də inşaat sektorları da müsbət dinamika nümayiş etdirmişdir.

Qarabağ regionunda atəşkəs razılaşmasının davam etməsi biznes mühitinə də müsbət təsir göstərir, çünki investisiyaların cəlb edilməsi və işğaldan azad edilmiş ərazilərin inkişafı üçün hökumət tərəfindən həyata keçirilən bir sıra layihələr mövcuddur.

2023-cü ildə ÜDM 2022-ci illə müqayisədə 1.1% artaraq 123 milyard AZN (təxminən 72.4 milyard ABŞ dolları) təşkil etmişdir. 2024-cü ilin ilk ayları üçün açıqlanan ilkin göstəricilər ÜDM-in artım tempinin bir qədər sürətləndiyini göstərir və ilin sonuna kimi 2.5–3% arasında artım gözlənilir. Artım əsasən qeyri-neft sektorunda, xüsusilə xidmət və sənaye sahələrində müşahidə olunmuşdur.
Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsi 2023-cü ilin on bir ayı ərzində 51.2 milyard ABŞ dollarına çatmışdır. Bu məbləğin 33.9 milyard dolları ixracın, 17.3 milyard dolları isə idxalın payına düşmüşdür. 2024-cü ildə isə dünya bazarındakı qiymət dalğalanmaları fonunda ticarət balansında müəyyən dəyişikliklər müşahidə olunsa da, ümumi ixrac üstünlüyü qorunub saxlanmışdır. Enerji sektorundan gələn ixrac gəlirləri ölkənin tədiyə balansında müsbət saldonun formalaşmasında əsas rol oynamağa davam edir.

Beynəlxalq kredit reytinq agentlikləri 2024-cü ildə də Azərbaycanın kredit qabiliyyətini müsbət qiymətləndirmişdir. "Fitch Ratings" və "Standard & Poor's" (S&P) Azərbaycanın kredit reytinqini əvvəlki illə müqayisədə dəyişməz saxlayaraq "BB+" səviyyəsində qiymətləndirmiş, "Moody's Investors Service" isə ölkənin reytinqini "Ba1" səviyyəsində təsdiq etmişdir. Bütün bu reytinqlər Azərbaycanın maliyyə sabitliyini və öhdəliklərini yerinə yetirmə qabiliyyətini əks etdirir.

## 19. MALİYYƏ RİSKLƏRİNİN İDARƏ EDİLMƏSİ

Agentlik daxilində risklərin idarə edilməsi maliyyə riskləri (kredit bazarı, valyuta, faiz dərəcəsi, likvidlik və coğrafi risklər), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirilir. Maliyyə risklərinə valyuta riski, kredit riski və likvidlik riski daxildir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.

**Valyuta riski**

Valyuta riski satış, alış və borclar üzrə əməliyyatlar Agentliyin müvafiq əməliyyat valyutalarından başqa valyutalarda ifadə olunduqda yaranır. 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixinə Agentliyin xarici valyutada əməliyyatları olmadığı üçün Agentlik xarici valyuta riskinə məruz qalmamışdır.

**Kredit riski**

Maliyyə aləti üzrə əməliyyat aparan bir tərəfin öz öhdəliyini yerinə yetirə bilməməsi nəticəsində digər tərəfə maliyyə zərəri vurularsa, Agentlik kredit riskinə məruz qalır. Kredit riski Agentliyin qarşı tərəflərlə həyata keçirdiyi kredit və digər əməliyyatlar nəticəsində ortaya çıxır ki, bu da maliyyə aktivlərinin yaranmasına gətirib çıxarır. Agentliyin 31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixinə banklardakı hesablardan başqa kredit riskinə məruz qalan maliyyə alətləri yoxdur.

***Maliyyə aktivləri üzrə ehtimal olunan kredit zərərləri***

Agentliyin maliyyə aktivləri ehtimal olunan kredit zərərləri modelinə məruz qalır. 9 saylı MHBS-nin dəyərsizləşmə ilə bağlı tələbləri pul vəsaitləri və onların ekvivalentlərinə də şamil olunsa da, müəyyən edilmiş dəyərsizləşmə zərərinin həcmi əhəmiyyətsiz olmuşdur.

***Likvidlik riski***

Likvidlik riski maliyyə öhdəliklərinin yerinə yetirilməsində müəssisənin çətinliklərlə üzləşəcəyi riskidir. Agentlik gözlənilməyən likvidlik tələblərini tez bir zamanda və asanlıqla yerinə yetirmək üçün vəsaitləri pul vəsailtəri və onların ekvivalentləri şəklində saxlayır.

## 20. ƏDALƏTLİ DƏYƏR HAQQINDA AÇIQLAMALAR

Ədalətli dəyərin qiymətləndirilməsi nəticələri aşağıda göstərildiyi kimi ədalətli dəyər iyerarxiyasının səviyyələrinə görə təhlil edilir: (i) 1-ci Səviyyəyə oxşar aktiv və öhdəliklər üçün fəal bazarlarda kotirovka olunan qiymətlərlə qiymətləndirmələr (təshih edilməmiş), (ii) 2-ci Səviyyəyə aktiv və ya öhdəlik üçün birbaşa (yəni qiymətlər) və ya dolayısı ilə (yəni qiymətlərdən yaranan) müşahidə edilə bilən ilkin əhəmiyyətli məlumatların istifadə edildiyi qiymətləndirmə üsulları vasitəsilə əldə edilən qiymətləndirmələr və (iii) 3-cü Səviyyəyə müşahidə edilən bazar məlumatlarına əsaslanmayan qiymətləndirmələr (müşahidə edilməyən ilkin məlumatlar) daxildir. Maliyyə alətlərini ədalətli dəyərlə qiymətləndirmə iyerarxiyalarına bölmək üçün rəhbərlik peşəkar mülahizələr irəli sürür.

Ədalətli dəyərlə qiymətləndirmə üçün əhəmiyyətli dərəcədə düzəlişlər tələb edən müşahidə edilə bilən məlumatlardan istifadə edildikdə, bu qiymətləndirmə 3-cü Səviyyəyə aid edilir. İstifadə edilən məlumatların əhəmiyyətliliyi, bütövlükdə, ədalətli dəyərin qiymətləndirilməsi ilə ölçülür.

31 dekabr 2025-ci il və 31 dekabr 2024-cü il tarixlərinə maliyyə vəziyyəti haqqında hesabatda ədalətli dəyərdə tanınan maliyyə alətləri mövcud olmamışdır.

Ədalətli dəyərlə qiymətləndirilməyən, lakin ədalətli dəyəri açıqlanan aktiv və öhdəliklər üç aydan artıq ödəmə müddəti olan aktiv və öhdəliklərin qalıq dəyəri belə maliyyə aktivlərinin ödəmə müddətlərinin nisbətən qısa olması ilə əlaqədar olaraq təxminən onların ədalətli dəyərini özündə əks etdirir. Digər maliyyə alətlərinin ədalətli dəyəri oxşar kredit riskinə və ödəmə müddətinə malik olan yeni alətlər üçün ilin sonuna müvafiq bazar dərəcələri ilə diskontlaşdırılmış gələcək pul axınlarının cari dəyəri kimi hesablanır.
s
Rəhbərlik hesab edir ki, pul vəsaitləri və onların ekvivalentləri ədalətli dəyər iyerarxiyasının 1-ci Səviyyəsində təsnifləşdirilmiş, maliyyə hesabatlarında tanınmış digər maliyyə aktiv və öhdəliklərinin qalıq dəyəri təxminən onların ədalətli dəyərinə bərabərdir və ədalətli dəyər iyerarxiyasının 2-ci Səviyyəsinə aid edilmişdir.

## 21. HESABAT TARİXİNDƏN SONRAKI HADİSƏLƏR

Hesabat tarixindən sonrakı dövrdə heç bir əhəmiyyətli hadisə baş verməmişdir.

**Rəhbərlik tərəfindən:**

**Aygün Əliyeva**
**İdarə Heyətinin Sədri**

**Əli Quluzadə**
**Baş mühasib**